***Eldəniz Uğur***



## *SEVDİYİMƏ*

Görüsünə gəlmisəm mən yenə
Dayanmısam qarsında nitqi lal
Ümüdlərim baglı qalıbdır sənə
Kecir xəyalımdan gör necə sual

Dayanıb baxıram o gül üzünə
Bəlkədə qəlbində qınarsan məni
Möhtac qalmısam şirin sözünə
Bəlkədə ürəkdən sınarsan məni

Görürəm bu esqi sənin gözündə
Bahar təravətli bir cicək kimi
Mat -mat baxırsan sənin özündə
Sanki göydən enmis bir mələk kimi

Durub baxırıq birgə sahila
Sanki ləpələrdə görürəm səni
Bir vaxt qəlbində gələcək dilə
Deyəcəksən mən də sevirəm səni.

## *SƏNİ DÜŞÜNÜRƏM*

Ömrünün ətirli xoş çağındasan
Qəlbimin çiçəkli gül bağındasan
Eldənizin dilin də, dodagındasan
Səni düşünürəm, düşünürəm mən!

Kecən günlərimiz kecir gözümdən
Bas aca bilmirəm özüm-özümdən.
Incimə dediyim ürək sözümdən
Səni düşünürəm, düşünürəm mən!

Həm mənə uzaqsan, həm mənə yaxın
Həm mənə düşmənsən, həm mənə qohum
Aldığım nəfəsim, çəkdiuim ahım-
Səni düşünürəm, düşünürəm mən!

Gözümün nurusan könül sevənim
Qoy dağ tək həmişə sənə güvənim!
Sən gözümün nuru, könül həmdəmim
Səni düşünürəm, düşünürəm mən!

Səni düşünürəm hər saat,hər an
Qəlbimdə yasayan ,sinəmdə vuran
Mənim yoxluguma boynunu buran
Səni düşünürəm, düşünürəm mən!

## *GÖZƏL*

Cahan sənsiz gözlərim də hec nədi
Mənə yol göstərən gözümsən gözəl
Keçən günlərimi dilə gətirən
Ürəyim , varlığım , özümsən gözəl!

Biz vaxtsız-vədəsiz qıraqda qaldıq
Hərəmiz bir yanda xəyala daldıq .
Gül kimi açıldıq, gül kimi solduq-
Məni alovlarda yandırma gözəl!

Gözlərim də yaşla doldu bir anda
Bagcamin da gülü soldu bir anda
Eldəniz də tanha qaldı bir anda
Damarımda axan qanımsan gözəl!l

## *ÖLƏNƏ QƏDƏR*

Bilirsən mən səni sevirəm necə
Getməsin eşqimiz, getməsin hədər
Yadimadan çıxmırsan gündüz , nə gecə-
Mənim olacaqsan ölənə qədər!

Bizim sevgimizdi könüll ruzumuz.
Almasın qəlbimizi nə qəm, nə kədər.
Qosa yazılıbdır tale yazımız
Mənim olacaqsan ölənə qədər!

Mən səni sevirəm uca dag kimi.
Gəl çəkmə özünü naza bu qədər..
Söylə, səndən basqa sevmisəm kimi.
Mənim olacaqsan ölənə qədər!

Dağ da dözə bilməz mənim dərdimə
Hicranın ağrısı yükdü qəddimə
Verməzəm mən səni gülüm heç kimə
Mənim olacaqsan ölənə qədər!